.

**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Nəqliyyat və tranzit yükdaşımaları sektorunun**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Nəqliyyat və tranzit yükdaşımaları sektoru (bundan sonra - sektor) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslər tərəfindən dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma, tranzit yüklərlə bağlı liman və nəqliyyat-ekspedisiya xidmətləri göstərilməsinə (bundan sonra – müvafiq sahədə) görə tariflərin dövlət tənzimlənməsinin həyata keçirilməsi, bu sahədə daşıma prosesinin bütün iştirakçılarının, o cümlədən sərhədkeçmə prosedurlarını həyata keçirən dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi ilə bağlı təşkilati işləri həyata keçirir.

1.2. Sektor öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası İqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Sektor öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, digər strukturları və strukturuna daxil olmayan tabeliyindəki qurumlar, Nazirliyin təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər (bundan sonra – Nazirliyin strukturları), mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Sektorun fəaliyyət istiqamətləri

2.1. Sektorun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. sektor müvafiq sahədə tariflərin dövlət tənzimlənməsi, bu sahədə daşıma prosesinin bütün iştirakçılarının, o cümlədən sərhədkeçmə prosedurlarını həyata keçirən dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı təşkilati işlərin həyata keçirilməsini təmin edir;

2.1.2. müvafiq sahədə tariflərin iqtisadi cəhətdən əsaslı, səmərəli, bazarın tələbləri baxımından optimal olmasına dair araşdırmalar və təhlillərin aparılmasını təmin edir;

2.1.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Sektorun vəzifələri

3.1. Sektor bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. müvafiq sahədə tarif tənzimlənməsi üzrə təşkilati işlərin həyata keçirilməsində, o cümlədən Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının (bundan sonra - Şura) və Nazirliyin fəaliyyəti ilə bağlı zəruri olan metodiki sənədlərin, aktların, əmrlərin, göstərişlərin, məktubların və digər sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.2. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşıma müddətlərinin azaldılması, yükdaşımalar üzrə daşıma qaydalarının, şərtlərinin və prosedurlarının şəffaflaşdırılması, asanlaşdırılması və sadələşdirilməsi üzrə təkliflər hazırlamaq;

3.1.3. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşıma müqavilələrinin bağlanması prosedurlarının şəffaflaşdırılması, asanlaşdırılması, elektronlaşdırılması və bu sahədə “bir pəncərə” prinsipinin tətbiqi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etmək:

3.1.3.1. tranzit yükün daşınması ilə əlaqədar müqavilənin bağlanması üçün daşıyıcılar və ya müştərilərdən birbaşa və ya ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları xidmətləri göstərən nəqliyyat müəssisələri vasitəsilə daxil olmuş müraciətlərin (o cümlədən elektron müraciətlərin) qəbulu;

3.1.3.2. ölkə ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması şərtləri (vahid tariflər, müddətlər və s.) barədə məlumatın daşıyıcı şirkət və ya müştərilərə verilməsi;

3.1.3.3. daxil olmuş müraciətlərin koordinasiyası (razılaşdırılması) məqsədi ilə onların dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələrinə göndərilməsi;

3.1.3.4. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində bağlanmış bütün müqavilələrin qeydiyyatının aparılması və tranzit yüklərin dövlət sərhədindən keçirilməsi üçün qeydiyyata alınmış belə müqavilələr haqqında məlumatların, habelə tranzit yükdaşımalarla bağlı daşıma sənədlərinin sərhəd xidməti və gömrük orqanlarına göndərilməsi;

3.1.4. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində nəqliyyat müəssisələrinin, daşıyıcıların, ekspeditorların və operatorların qarşılıqlı fəaliyyəti üçün vahid prinsiplərin və şərtlərin müəyyən olunması ilə bağlı təkliflər hazırlamaq;

3.1.5. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində nəqliyyat infrastrukturunun inkişafı, daşıma proseslərini idarəetmə sistemlərinin təkmilləşdirilməsi və səmərəliliyin artırılması istiqamətində təkliflər hazırlamaq;

3.1.6. tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması və yeni tranzit imkanlarının yaradılması məqsədi ilə təhlillər aparmaq, proqramlar hazırlamaq;

3.1.7. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların inkişafına maneələrin aradan qaldırılması ilə bağlı təkliflər hazırlamaq;

3.1.8. müvafiq sahədə hüquqi aktların layihələrini, digər orqanlar tərəfindən hazırlanmış belə layihələrə dair rəy və təkliflər hazırlamaq;

3.1.9. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində mövcud infrastruktur obyektlərinin potensialından maksimum istifadə edilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.10. Şuranın qəbul etdiyi qərarlarla bağlı şərh layihələrini hazırlamaq;

3.1.11. müavafiq sahədə əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan informasiyanın həmin saytda yerləşdirilməsini və informasiyanın daim yenilənməsini təmin etmək.

3.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Sektorun hüquqları

4.1. Sektor öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, Şuranın və Nazirliyin fəaliyyətinə aid qanunvericilik aktlarının, o cümlədən müvafiq sahədə tarif tənzimlənməsi üzrə normativ-hüquqi aktların təkmilləşdirilməsində iştirak etmək;

4.1.2. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində dövlət və yerli özünüidarəetmə orqanlarından, təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlərdən məlumatları (sənədləri) almaq;

4.1.3. fəaliyyət istiqamətləri üzrə beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilən forumlarda, konfranslarda, sərgilərdə və digər tədbirlərdə iştirak etmək, müvafiq sahə üzrə aidiyyəti təkliflərlə çıxış etmək;

4.1.4. müvafiq sahədə tarif tənzimləməsi sahəsinin inkişafına yönəldilmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsində iştirak etmək;

4.1.5. fəaliyyət istiqamətlərinə uyğun digər dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Sektorun fəaliyyətinin təşkili

5.1. Sektorun strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Sektor bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olunmaqla, heç kəs sektorun fəaliyyətinə müdaxilə edə bilməz.

5.2. Sektorun fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sektor müdiri rəhbərlik edir. Sektor müdiri sektora həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Sektor müdiri:

5.3.1. sektorun fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir, sektorun əməkdaşları arasında iş bölgüsü aparır;

5.3.2. sektorun əməkdaşları arasında qarşılıqlı və səmərəli işin qurulmasını təmin edir, onların əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.3.3. sektorun əməkdaşları barəsində qanunvericilikdə nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tədbirləri görülməsi barədə nazirə təqdimat verir;

5.3.4. sektora həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədi ilə sektorun iş planının, fəaliyyəti ilə bağlı hesabatların hazırlanmasını təmin edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.3.5. sektor üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, sektor tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən hüquqi aktların və digər sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.3.6. sektora daxil olan ərizə, təklif və şikayətlərin araşdırılması və cavablandırılmasını təmin edir;

5.3.7. sektorun əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.3. 8. sektorun vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.3.9. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.3.10. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.3.11. sektoru təmsil edir.

5.4. Sektorun əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.